

Hakim Gürcü Arzusu Partiyasının dəstəklədiyi prezidentliyə namizəd Salome Zurabişvili seçki kampaniyası çərçivəsində Kaxeti bölgəsinə səfər edib.

24News.ge xəbər verir ki, O, səfər çərçivəsində azərbaycanlıların sıx yaşadığı Qaracalar kəndində yerli sakinlərlə görüşüb.

S.Zurabişvili kənd sakinlərini narahat edən problemlərlə maraqlanıb: "Qarşıdakı seçkilərin nəticəsində yeni Gürcüstan qurulacaq və sizin bu işdə töhfəniz əhəmiyyətli olacaq. Mən sizin prezidentiniz olacağam və siz mənə problemləriniz barədə məlumat verə biləcəksiniz. Mən sizin dəstəyinizə yalnız seçkilərdə deyil, seçkilərdən sonra da ümid edirəm. Biz sizinlə güclü Gürcüstan quracağıq".



